**“Əlilliyi olan şəxslərin hüquqları haqqında” Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun tətbiqi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. beş ay müddətində:

1.1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.3. həmin Qanunun 3.1-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, əlilliyin qiymətləndirilməsi qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

1.1.4. həmin Qanunun 3.2-ci maddəsinə uyğun olaraq, əlilliyin qiymətləndirilməsi məqsədi ilə tibbi-sosial ekspertiza müayinəsinə göndərişlərin verilməsi qaydasını təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.5. həmin Qanunun 3.4-cü maddəsinə uyğun olaraq, əlilliyin müəyyən olunması meyarlarını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

1.1.6. həmin Qanunun 3.6-cı maddəsinə uyğun olaraq, əlilliyi olan şəxslərin reyestrinin aparılması qaydasını təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.7. həmin Qanunun 8.3-cü maddəsinə uyğun olaraq, dövlət tibb müəssisələrində əlilliyi olan şəxslər üçün dövlət büdcəsi hesabına həyata keçirilməyən tibbi xidmətlərin növlərini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

1.1.8. həmin Qanunun 10.4-cü maddəsinə uyğun olaraq, dövlət reabilitasiya müəssisələrinin təşkili və fəaliyyəti qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

1.1.9. həmin Qanunun 10.5-ci maddəsinə uyğun olaraq, özəl və bələdiyyə reabilitasiya subyektləri üçün standartları təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.10. həmin Qanunun 10.6-cı maddəsinə uyğun olaraq, əlilliyi olan şəxslərin abilitasiyası qaydasını təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.11. həmin Qanunun 11.2-ci maddəsinə uyğun olaraq, Fərdi Reabilitasiya Proqramının hazırlanması, təsdiq edilməsi və həyata keçirilməsi qaydasını təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.12. həmin Qanunun 14.2-ci maddəsinə uyğun olaraq, infrastruktur obyektlərinin əlilliyi olan şəxslərin istifadəsi üçün ağlabatan uyğunlaşdırılması qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

1.1.13. həmin Qanunun 15.4-cü maddəsinə uyğun olaraq, istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində əlilliyi olan şəxslər üçün onların yaşadığı fərdi evlərin uyğunlaşdırılması ilə bağlı xərclərin minimum məbləğini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

1.1.14. həmin Qanunun 19.2-ci maddəsinə uyğun olaraq, stasionar müalicə-profilaktika və ya reabilitasiya müəssisələrində dərs məşğələlərinin təşkili qaydasını təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.15. həmin Qanunun 23.2-ci maddəsinə uyğun olaraq, əlilliyi olan şəxslərin iş yerlərinin standartlarını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

1.1.16. həmin Qanunun 29-cu maddəsinə uyğun olaraq, əlilliyi olan şəxslərin dərman preparatları, tibbi xidmət və ölkə hüdudları daxilində sanatoriya-kurort müalicəsi ilə təmin olunması qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

1.1.17. həmin Qanunun 30.1-ci maddəsinə uyğun olaraq, əlilliyi olan şəxslərə dövlət büdcəsi hesabına verilən reabilitasiya vasitələrinin növlərinin siyahısını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

1.1.18. həmin Qanunun 30.2-ci maddəsinə uyğun olaraq, əlilliyi olan şəxslərin reabilitasiya vasitələri ilə təmin edilməsi şərtləri və qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

1.1.19. həmin Qanunun 31.2-ci maddəsinə uyğun olaraq, yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış əlilliyi olan şəxs vəfat etdiyi halda həmin uçotun onun ailə üzvləri üçün saxlanılması qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

1.1.20. həmin Qanunun 38.2-ci maddəsinə uyğun olaraq, əlilliyi olan şəxslərin hüquqları sahəsində dövlət monitorinqinin həyata keçirilməsi qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

1.1.21. həmin Qanunun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Azərbaycan Respublikasının Qanununun 3.5-ci (ikinci halda), 17-ci (ikinci halda) və 30.3-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini həyata keçirəcək icra hakimiyyəti orqanları barədə təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə altı ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

2.1. “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Azərbaycan Respublikası Qanununun *20.3-cü və 28.3-cü maddələrində* nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının

Prezidenti həyata keçirir;[1]

2.2. həmin Qanunun 3.1-ci maddəsinin ikinci cümləsində, 3.2-ci, 3.4-cü, 3.6-cı, 8.3-cü (birinci halda), 10.4-cü, 10.5-ci, 10.6-cı (birinci halda), 11.2-ci, 14.2-ci, 15.4-cü, 17-ci (birinci halda), 19.2-ci, 22.4-cü, 23.2-ci, 29-cu, 30.1-ci, 30.2-ci, 31.2-ci və 38.2-ci (birinci halda) maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

2.3. həmin Qanunun 1.0.16-cı maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi həyata keçirir;

2.4. həmin Qanunun 3.1-ci maddəsinin birinci cümləsində, 3.3-cü, 3.5-ci (birinci halda),10.2-ci, 10.6-cı (ikinci halda), 11.3-cü maddələrində, 11.4-cü maddəsinin birinci və ikinci cümlələrində, 13.3-cü, ~~20.3-cü (hər iki halda),~~ 22.3-cü, 22.5-ci, 23.1-ci, *30.3-cü,* 32.3-cü*, 32-1-ci* və 38.2-ci (ikinci halda) maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi həyata keçirir;[2]

2.5. həmin Qanunun 7-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Mədəniyyət Nazirliyi, Gənclər və İdman Nazirliyi və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi həyata keçirirlər;

2.6. həmin Qanunun 8.3-cü maddəsində (ikinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi həyata keçirirlər;

2.7. həmin Qanunun *3.5-ci maddəsində (ikinci halda),* 14.1-ci və 35.2-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini mərkəzi və yerli icra hakimiyyəti orqanları həyata keçirirlər; [3]

2.8. həmin Qanunun 16.1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi həyata keçirirlər;

*2.8-1. həmin Qanunun 17-ci maddəsində (ikinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini infrastruktur obyektlərinin və yaşayış binalarının layihələndirilməsi və tikintisi zamanı əlilliyi olan şəxslərin tələbatının nəzərə alınmasına münasibətdə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, istismarda olan infrastruktur obyektlərinin və yaşayış binalarının əlilliyi olan şəxslərin istifadəsi üçün ağlabatan uyğunlaşdırılmasına münasibətdə yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;*[4]

2.9. həmin Qanunun 18.3-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, Mədəniyyət Nazirliyi və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi həyata keçirirlər;

2.10. həmin Qanunun 19.1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Təhsil Nazirliyi həyata keçirir;

2.11. həmin Qanunun 36.1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi həyata keçirirlər;

*2.12. həmin Qanunun 20.3-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur.*[5]

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 18 iyul 2018-ci il
213

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 6 noyabr 2018-ci il tarixli **326** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 7 noyabr 2018-ci il, 251, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 11, maddə 2239**)
2. 3 iyul 2019-cu il tarixli **769** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 4 iyul 2019-cu il, 142, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 7, maddə 1217**)
3. 2 iyul 2020-ci il tarixli **1081** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 4 iyul 2020-ci il, 127, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 7, maddə 861**)

## FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 2 iyul 2020-ci il tarixli **1081** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 4 iyul 2020-ci il, 127, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 7, maddə 861**) ilə 2.1-ci bənddə "**28.3-cü maddəsində**" sözləri "**20.3-cü və 28.3-cü maddələrində**" sözləri ilə əvəz edilmişdir.

[2] 6 noyabr 2018-ci il tarixli **326** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 7 noyabr 2018-ci il, 251, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 11, maddə 2239**) ilə 2.4-cü bəndə "**23.1-ci,**" sözlərindən sonra "**30.3-cü,**" sözləri əlavə edilmişdir.

3 iyul 2019-cu il tarixli **769** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 4 iyul 2019-cu il, 142, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 7, maddə 1217**) ilə 2.4-cü bəndə "**32.3-cü**" sözlərindən sonra "**, 32-1-ci**" sözləri əlavə edilmişdir.

2 iyul 2020-ci il tarixli **1081** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 4 iyul 2020-ci il, 127, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 7, maddə 861**) ilə 2.4-cü bənddən "**20.3-cü (hər iki halda), **" sözləri çıxarılmışdır.

[3] 6 noyabr 2018-ci il tarixli **326** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 7 noyabr 2018-ci il, 251, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 11, maddə 2239**) ilə 2.7-ci bəndə "**Qanunun**" sözündən sonra "**3.5-ci maddəsində (ikinci halda),**" sözləri əlavə edilmişdir.

[4] 6 noyabr 2018-ci il tarixli **326** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 7 noyabr 2018-ci il, 251, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 11, maddə 2239**) ilə yeni məzmunda 2.8-1-ci bənd əlavə edilmişdir.

[5] 2 iyul 2020-ci il tarixli **1081** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 4 iyul 2020-ci il, 127, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 7, maddə 861**) ilə 2.11-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 2.12-ci bənd əlavə edilmişdir.